Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Ağrıyan gözlərə şəfadır əlin

**Akademik Zərifə xanım Əliyevanın 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Lalə Qəmbərova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Ağrıyan gözlərə şəfadır əlin:** Akademik Zərifə xanım Əliyevanın 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. L. Qəmbərova; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 29 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Hər bir millət üçün fəxr olunası haldır ki, mənsub olduğu ölkə tarixində unudulmaz şəxslər yaşayıb, yaradıb. Elə şəxslər ki, xalqı qarşısındakı xidmətləri əvəzolunmazdır. Məhz belə insanlardan biri də görkəmli akademik Zərifə xanım Əliyevadır. Zərifə xanım xalqın yaddaşında novator və istedadlı alim, bilikli və bacarıqlı həkim, tanınmış ictimai xadim, gözəl və qayğıkeş ana kimi qalmışdır. Bu görkəmli şəxsiyyət dövrünün ən tanınmış ziyalı ailələrinin birində dünyaya göz açmışdı. Zərifə xanımın dünyaya gəldiyi ailədə bütün yüksək əxlaqi keyfiyyətlər nəsildən-nəslə irsi olaraq keçmişdi. Azərbaycanın görkəmli ictimai xadimlərindən olan akademik Əziz Əliyev övladlarını mənəvi təmizliyə, paklığa öyrətmiş, milli-ənənələr üzərində tərbiyə etmişdi. Uşaqlıqdan bu gözəl ailədə yiyələndiyi xüsusiyyətlər bütün həyatı boyu Zərifə xanıma çox kömək etmişdi. Bu nəciblik ona sanki ailəsindən miras qalmışdı. Zərifə xanım təmkinli, səbirli, dözümlü qadın olaraq biliyi, bacarığı, müdrik söhbətləri, səmimi, xoş rəftarı, ətrafındakılara mərhəməti ilə hamının rəğbətini qazanmışdı.

Dünya oftalmologiya elminə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın zəngin elmi irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. Görkəmli alimin keçdiyi şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.

Görkəmli elm xadimi, akademik Zərifə xanım Əliyevanın unudulmaz xatirəsi insanları daim öz işığına toplayır, həyat yolumuza, elmimizə, təhsilimizə sanki sönməyən çıraq tutur.

## Şərəfli ömür yolu

Akademik Zərifə xanım Əliyeva 1923-cü il, aprelin 28-də Azərbaycanın zəngin tarixə, əsrarəngiz gözəlliklərə malik füsunkar guşəsində Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açmışdır. Zərifə Əliyevanın dünyaya gəlişi ailə üçün düşərli oldu. Elə həmin il ailənin Bakıya köçməsi ilə onların gələcək uğurlarının özülləri qoyuldu. Ailənin başçısı Əziz Əliyev Bakı Dövlət Universitetinin tibb fakültəsinə daxil olaraq bir vaxtlar Sankt-Peterburqda yarımçıq qalmış tibb təhsilini davam etdirdi, övladları isə öz arzuları ilə seçdikləri peşələr üzrə ali təhsil aldılar.

Atalarının yolunu davam etdirən dörd övladdan biri də gənc Zərifə xanım Əliyeva oldu. Orta məktəbi əla qiymətlərlə bitirən Zərifə xanım böyük qardaşı Tamerlan Əliyevlə birlikdə İkinci dünya müharibəsi illərində Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində təhsil alırdı. Həmin dövrdə onlar, təbii ki, ailənin digər övladları ilə birlikdə anaları Leyli xanımın himayəsi altında yaşayırdılar.

Sonralar Tamerlan Əliyev terapevt, Zərifə və Ləzifə Əliyevalar həkim-oftalmoloq ixtisasını seçdilər. Onların kiçik qardaşları Cəmil Əliyev isə fərqli bir sahə – onkologiya sahəsini seçdi. Bu, onların öz arzuları ilə reallaşdırdıqları bir seçim idi.

Zərifə xanım, bəlkə də, bu ixtisası seçərkən ölkə əhalisinin bu sahəyə böyük ehtiyacı olduğunu düşünmüş və Vətənə bu istiqamətdə daha çox xeyir verəcəyini fikirləşərək, bu addımı atmışdı. Məsələnin məğzi də ondan ibarət idi ki, Zərifə Əliyevanın institutu bitirdiyi 1947-ci ildə müharibə təzə başa çatmışdı və onun fəsadları çətinliklə aradan qaldırılırdı. Əhali arasında mövcud olan və geniş yayılan çətinliklərdən birini də traxoma xəstəliyi yaradırdı. Zərifə xanım institutu bitirdikdən

sonra bütün diqqətini bu istiqamətə yönəltmişdi, ən böyük arzusu xalqı bu ağır bəladan qurtarmaq idi. Ona görə də o, Moskvada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda 2 il ərzində diplomdan sonrakı təhsillə məşğul olub, oftalmologiya üzrə yüksək ixtisaslı mütəxəssis adını aldı. Yalnız bundan sonra vətənə qayıdaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində ilk əmək fəaliyyətinə başladı. Bu institutda 18 il fədakarlıqla çalışdı. O, göz xəstəliklərinin, xüsusilə də traxomanın epidemiyasının qarşısının alınması üçün gərgin işlərə başladı. Bilirdi ki, bir vaxtlar, hələ müharibədən əvvəlki 30-40-cı illərdə Azərbaycanda traxoma ocağı alovlanırdı. O vaxtlar respublikada onun qarşısının alınması üçün xüsusi həkim komissiyası yaradılmışdı və Əziz Əliyev bu komissiyanın rəhbəri təyin edilmişdi. Zərifə xanım Əliyevaya o da bəlli idi ki, atası digər həkimlərlə birlikdə bu vəzifənin öhdəsindən bacarıqla gəlmiş, müharibədən əvvəlki illərdə aparılan genişmiqyaslı səhiyyə tədbirləri nəticəsində traxoma epidemiyasının yayılma təhlükəsininn qarşısı alınmışdı. Müharibə dövründə bu infeksiya ocaqları yenidən közərmiş və müharibədən sonrakı illərdə insanların həyatı üçün ciddi təhlükəyə çevrilmişdi. Zərifə Əliyeva müharibədən sonrakı illərdə bu ağır yükü öz zərif çiyinlərinə götürdü və sübut etdi ki, ağılın gücündən istifadə etməklə ən ağır yüklərin öhdəsindən gəlmək mümkündür.

1977-ci il Zərifə xanımın həyatında mühüm tarixi hadisənin əbədiləşdirməsi ilə yadda qaldı. Həmin ildə akademik Zərifə Əliyevanın təşkilatçılığı ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi.

Akademik Zərifə xanım Əliyevanın doktorluq dissertasiyası müdafiəsindən sonra Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri

kafedrasında əvvəl professor, sonra isə kafedranın müdiri vəzifələrinə seçilməsi alimin tədris sahəsindəki bacarıqlarının tam şəkildə üzə çıxmasına güclü təkan verdi.

Akademik Z.Əliyevanın qələmə aldığı əsərlər içərisində həkimlik deontologiyasına həsr etdiyi "Yüksək etimad" kitabı da öz orijinallığı, mövzu genişliyi, fəlsəfi motivləri, tərbiyəvi əhəmiyyəti, etik norma meyarları cəhətdən son dərəcə əhəmiyyətli və lazımlı əsərlərdəndir.

1981-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daha bir ildırım sürətli xoş xəbər yayıldı. Əslində, bu xoş xəbər bütün Azərbaycana yayılmış və elmi ictimaiyyətə çatdırılmışdı. Xəbərdə bildirilirdi ki, Azərbaycanın görkəmli oftalmoloq-alimi Zərifə Əziz qızı Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafata layiq görülüb. Bu, o demək idi ki, Z.Əliyeva keçmiş SSRİ miqyasında belə mötəbər təltifə layiq görülən ilk qadın-oftalmoloq olmuşdu.

Alimin yubiley tarixləri, anım günləri ölkəmizin hər yerində olduğu kimi, təhsil aldığı Azərbaycan Tibb Universitetində, uzun illər fəaliyyət göstərdiyi və hazırda onun adını daşıyan "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Z.Ə.Əliyeva adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda təntənəli surətdə qeyd edilir, alimin anım günlərində elmi-praktik konfranslar keçirilir, xatirəsi ehtiramla yad edilir.

İnanıram ki, həm onların, həm də bütün Azərbaycan gənclərinin yollarına işıq saçan görkəmli ictimai xadim, akademik Zərifə Əziz qızı Əliyevanın irsindən indiki və gələcək nəsillər hər zaman lazımınca bəhrələnəcək, elmin yeni zirvələrini inamla fəth edəcəklər.

Akademik Zərifə xanım Əliyevanın keçdiyi ömür yolunu, tibb sahəsində, oftalmologiya sahəsində əldə etdiyi nailiyyətləri məktəblilərə tanıtmaq üçün kitabxanada bir sıra tədbirlər

keçirilə bilər; praktiki-elmi konfrans, inşa müsabiqəsi, dəyirmi masa, şeir müsabiqəsi, kitab müzakirəsi, xatirə gecəsi və s. Kitabxanada keçirilən belə tədbirlər oxucular tərəfindən çox gözəl və rəğbətlə qarşılanır. Həmçinin kitabxanada gözəl alim, oftalmoloqun geniş kitab sərgisi də keçirilə bilər və bu öhdəlik ən çox kitabxanaçının üzərinə düşür. Sərgiyə “Akademik – Zərifə xanım Əliyeva”, “Nəsillərə nümunə olan ömür yolu”, “Novator alim – şəfqətli qadın”, “Analıq, zəriflik və ziyalılıq rəmzi”, “Dünya şöhrətli alim-oftalmoloq”, “Nəciblik və paklıq timsalı”, “Nurlu insan”, “Alim ömrü”, “Nurlu siması əbədi xatırlanan nəcib insan”, “Əbədi nura qərq olmuş”, “Nurdan yaranıb nura qarışan insan”, “Böyük insan unudulmaz alim”, “Zəriflik mücəssəməsi, görkəmli akademik – Zərifə Əliyeva”, “Nur bəxş edən nurani qadın”, “Xeyirxahlıq və humanizm mücəssəməsi”, “Nəciblik və mənəvi paklıq timsalı”, “Ağrıyan gözlərə şəfadır əlin”, “İnsanlara nur bəxş edən ləyaqət mücəssəməsi”, “İstedadlı alim, pedaqoq, böyük insan”, “Əziz insan, unudulmaz ana, gözəl həkim”, “Xalqımızın gözəl qızı, ulduz qadını”, “Şərəfli ömür yolu”, “Gözlərə nur verən insan”, “Qəlblərdə yaşayan insan”, “Kamillik və müdriklik mücəssəməsi”, “Dəyərli alim, qayğıkeş ana, sədaqətli həyat yoldaşı”, “Ülvilik, gözəllik, sədaqət rəmzi”, “İşıq bəxş edən insan”, “Azərbaycan Tibb Universitetinin dünya şöhrətli məzunu”, “Dünya şöhrətli alim, qayğıkeş həkim, həssas qəlbli insan”, “Elmin işığı”, “Nura can atan böyük qəlb sahibi”, “Xalqa dayaq olan nəcib insan”, “Görkəmli oftalmoloq, nüfuzlu ictimai xadim” və s. kimi başlıqlar verilə bilər. Bundan başqa görkəmli oftalmoloqun dövri mətbuatda müxtəlif parçaları verilir.

# Kitab sərgisi


















## Zərifə Əliyeva görkəmli şəxslərin xatirələrində

Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri Zəhra Quliyeva deyir ki, düşdüyün mühit, ünsiyyətdə olduğun insanlar sənin formaşlamağında çox böyük rol oynayırlar. Bu mənada o, özünü şanslı insan sayır.

Zərifə xanım təkcə öz sahəsində yox, hər şeydə bənzərsiz idi. Bənzərsiz insan, həyat yoldaşı, ana, həkim, alim...Bilirsinizmi, yaxşı həkim ola bilərsən. Ancaq yaxşı həkim və yaxşı insan olmaq artıq başqa bir anlam kəsb edir. Zərifə xanımı tanıyanlar, ona müraciət edən bütün xəstələr təsdiq edə bilərlər ki, o, neçə böyük ürək sahibi və sadə insan idi. Yəqin ki, xəstələrin çoxu onun respublikamızın rəhbəri Heydər Əliyevin həyat yoldaşı olduğundan xəbərsiz idi. Heç özü də bunu kiminsə bilməsinə ehtiyac duymurdu. Xəstələrin hamısı Zərifə xanımı sadəcə insan kimi sevirdilər. İnanın ki, o, sadəliyin fövqündə dayanan bir insan idi. Mən özümü çox xoşbəxt sayıram ki, Zərifə xanımla, onun ailəsi ilə çox isti, doğma münasibətlərim olub.

***

Azərbaycanın gənc, tanınmış modelyeri Fəxriyyə Xələfovanın dedikləri: “Zərifə xanım mənim xatirimdə hər zaman Azərbaycan qadınlarının, azərbaycanlı anaların təcəssümü, idealı kimi yaşayır. Onun ən yüksək insani keyfiyyətləri bu gün bütün qadınlara örnək olmalıdır. Bu keyfiyyətlər arasında onun alicənablığı, yüksək mədəniyyəti, intelektual səviyyəsi, xeyirxahlığı, qayğıkeşliyi və mehribanlığı əsas yerləri tuturdu. Mən onun zəhmətsevərliyinə, məsuliyyətinə, işgüzarlığına, yorulmaq nə olduğunu bilmədən fəaliyyət göstərməsinə, bacarığına heyran qalmışdım. Bütün bunlarla bərabər Zərifə xanım böyük bir insanın həyat yoldaşı idi. Və onun qayğılarını da Zərifə xanım elə əsas vəzifə borcu sayırdı. Sonda demək istəyirəm ki, dayımın sədaqətli ömür-gün

yoldaşı yadımda həmişəlik adı kimi zərif, gözəl, xeyirxah, sadə və böyük insan kimi qalıb. Zərifə xanımda bütün insanlığa sevgi dolu bir ürək vardı.

***

Dünyalar içində zərifdən zərif,
Zərif bir dünyasan, Zərifə xanım.
Analar inciməz sözümdən mənim,
Ən böyük anasan, Zərifə xanım!

Dağ olmazdı, söykənməsə dağ dağa,
Arxaydın Heydərtək möhtəşəm dağa.
Günəşin nurusan başdan-ayağa,
Sahilsiz dəryasan, Zərifə xanım!

Şöhrətin yayıldı ulduza, aya,
Dar gündə yetişdin köməyə, haya.
İlham kimi oğul verdin dünyaya,
Nə gözəl bağbansan, Zərifə xanım!

Gördüklərim nə zəmidi, nə dəndi,
Soruşmuram, saçındakı nə dəndi?
Nə tez getdin, söylə, səbəb nədəndi?
Yoxsa ki, röyasan, Zərifə xanım!

Şəninə yaraşan dastan gəzirəm,
Sağalmaz dərdlərə dərman gəzirəm.
Mən məlhəm gəzirəm, loğman gəzirəm,
Təbibsən, loğmansan, Zərifə xanım!

Sənin gücün sözündəydi, gözdəydi,
Qəlbindəki, atəşdəydi, közdəydi.
Yəqin o vaxt gözlərinə göz dəydi,
Sirli bir ümmansan, Zərifə xanım!

Heyran idi hamı o vaxt sizlərə,
Qələmin gücü yox, yaza, söz dərə.
Gözünün nurunu verdin gözlərə,
Qəlblərə ziyasan, Zərifə xanım!

Alov közdən qaçdı, göz közdə qaldı
Çoxunun dediyi söz, sözdə qaldı.
Əbədi ünvanın gözlərdə qaldı,
Nə böyük mənasan, Zərifə xanım!

Xankişi çox gəzdi sərgərdan kimi,
Yazdı bu şeiri ərməğan kimi.
Kimin gəlini var Mehriban kimi?
Dünyaya aynasan, Zərifə xanım!
Ən böyük anasan, Zərifə xanım!

*Xankişi Bəxtiyar*

***Kitab müzakirəsi*** – Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95 illiyi münasibətilə kitabxanalarda görkəmli oftalmoloqun ***"Seçilmiş əsərləri"*** *kitabının müzakirəsini* keçirtmək olar. Belə tədbirlərə Tibb universitetində oxuyan tələbələri, müəllimləri dəvət etmək çox faydalı olardı. Tədbirin keçiriləcəyi zalda görkəmli alimin böyük portretinin asılması, kitabların sərgisinin təşkili vacibdir. Dəyirmi masanı kitabxananın müdiriyyəti və ya təcrübəli kitabxanaçılardan biri

açaraq Zərifə Əliyevanın şərəfli ömür yolu haqqında qısa məlumat verir.

**I oxucu:** Akademik Zərifə Əliyevanın "Seçilmiş əsərləri" oftalmologiya elminin inkişaf salnaməsidir. Əsrlər, qərinələr öncə canlı aləmin xəstəliklərinin müalicəsi bəşəriyyətin inkişafı üçün nə demək idisə, bu gün də həmin mənanı ifadə edir və bu zərurətin miqyası indi bir qədər də genişlənərək tibb, biotibb, bioetika sahəsində, xüsusən də oftalmologiya kimi fövqəladə dəqiqlik və peşəkarlıq tələb edən tibb sahəsində elmi araşdırmaların artmasına, elmi ixtiraların tərəqqisinə müsbət mənada təsir göstərir.

Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan, vaxtilə ölkəmizdə geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlər yaratmış Zərifə xanım Əliyeva "Seçilmiş əsərləri"nə daxil olan 12 kitabla yanaşı, bir neçə monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin də müəllifidir.

"Seçilmiş əsərlər"ə "Elmi Əsərlər məcmuəsi" (2 cilddə), "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksiyası zamanı oftalmopotologiya", "Oftalmologiyanın aktual problemləri" ( 3 cilddə), "Görmə orqanının peşə patologiyası" (2 cilddə), "İridodiaqnostikanın əsasları", "Gözün və görmə siniri yolunun yaşla əlaqədar dəyişiklikləri" adlı kitablar daxildir. Oftalmologiyanın müxtəlif sahələrindən bəhs edən hər bir kitaba Azərbaycanın və Rusiyanın görkəmli alimləri tərəfindən müsbət və dəyərli rəylər verilmişdir.

**II oxucu:** İlk dəfə 1983-cü ildə kitab halında nəşr olunmuş “Oftalmologiyanın aktual problemləri” adlı 3 cildlik əsəri “Seçilmiş əsərləri”nə əlavə edilmiş maraqlı və sanballı elmi əsərlərdən biridir. Burada oftalmologiyanın aktual problemlərinə aid 5 bölmə verilmişdir: həkimin mənəvi tərbiyəsi, deontologiya, tibb etika və əxlaq məsələləri, gözün biomikroskopiyasının əsasları, oftalmovirusologiyanın müasir aspektləri, görmə orqanının müxtəlif mənşəli zədələnmə məsələləri, göz mikrocərrahiyyəsinin propedevtikası. Akademik Z.Ə.Əliyeva praktik oftalmoloqlar, həkimləri təkmilləşdirmə institutları və institutun müəllimləri üçün nəzərdə tutulmuş bu əsərində ali tibb məktəbi müəllimlərinin mövqeyinə, diplomdan sonrakı təkmilləşdirmənin unifikasiya edilmiş proqramının və oftalmoloqlara təqdim edilən ixtisas tələblərinin məqsədlərinə uyğun şəkildə öz şəxsi elmi töhfəsini əks etdirməklə ixtisasın nəzəriyyə və praktikasında müasir nailiyyətləri işıqlandırmışdır.

“Seçilmiş əsərləri”nə daxil edilmiş “Şin istehsalında gözün peşə patologiyası” adlı digər kitabda haqqında söz açılan şin istehsalı Azərbaycan kimya sənayesində aparıcı sahələrdən biridir. Akademik Zərifə Əliyeva istehsalatda çalışan işçilərin görmə orqanında baş verən funksional və orqanik dəyişiklikləri təhlil edir, onların qarşısını alan profilaktik tədbirləri sadalayır, ilk dəfə olaraq şin istehsalında toksiki amillərin təsiri ilə əlaqədar orqanizmin və gözün intoksikasiyasının erkən əlamətlərini üzə çıxarır.

**III oxucu:** “İridodiaqnostikanın əsasları” adlı əsər akademik Zərifə Əliyevanın ən sanballı elmi yaradıcılıq nümunələrindən biri kimi dünya oftalmologiya elminə xüsusi töhfələr vermişdir. Mərkəzi Elmi Kitabxanada xüsusi oxucu marağı ilə qarşılanmış “Seçilmiş əsərləri”nin özəyini təşkil edən bu monoqrafiyada gözün bəbəyi, qüzehli qişanın stroması və xromatofor strukturlarının dəyişikliklərinə əsasən insan orqanları və

sistemləri xəstəliklərinin qeyri-spesifik topik diaqnostikasının yeni və olduqca perspektivli üsulunun – iridodiaqnostikanın mahiyyəti, məzmunu və metodik xüsusiyyətləri təqdim edilmişdir. Elmi tutumu çox yüksək olan bu əsər cədvəllər, sxemlər və qüzehli qişanın mikrofotoşəkilləri ilə illüstrasiya olunmuşdur.

“Seçilmiş əsərlər” sırasında “Elmi Əsərlər məcmuəsi” adlı 2 cildlik xüsusi əhəmiyyət kəsb edir. Bu məcmuədə akademik Zərifə Əliyevanın oftalmologiyanın aktual problemlərinə həsr olunmuş əsas elmi əsərləri təqdim edilmişdir. Burada akademik Zərifə xanım Əliyevanın müxtəlif illərdə “Azərbaycan tibb jurnalı”, “Oftalmologiya”, “Oftalmologiya xəbərləri” jurnallarında, ayrı-ayrı konfrans materiallarında, toplu və məcmuələrdə nəşr edilmiş elmi məqalələri cəm edilmişdir.

Zərifə xanım Əliyevanın “Seçilmiş əsərləri” ilə tanış olarkən bir daha əminlik yaranır ki, o, oftalmologiya sahəsində bütün lazımi biliklərə, elmi xüsusatlara yiyələnmiş, elmi tədqiqatları və müalicə prosesini dünya oftalmologiyasında qəbul olunmuş səviyyədə aparmış görkəmli bir alim olmuşdur. Zərifə xanım Əliyeva ona görə böyük alim və hörmətli həkim idi ki, onun peşəkarlığı şəxsiyyəti ilə vəhdət təşkil edirdi. “Yaxşı həkim yalnız yaxşı həkimdirsə, ondan yaxşı həkim olmaz!” – Zərifə xanım Əliyeva bu Şərq hikmətini çox bəyənirdi və kitablarından birinə məhz bu epiqrafı seçmişdi.

“Həkim insanlardan özünü ayırmamalı, özünü sevən, laqeyd insan olmamalıdır” deyən, ömrünü insanların şəfasına qaranlığa qərq olmuş gözlərin nur tapmasına sərf edən Zərifə xanım Əliyeva bütün ömrünü həsr etdiyi oftalmologiya elmi sahəsində müəlllifi olduğu əsərlərlə Azərbaycan tibb tarixində əvəzsiz xidmətlər göstərmişdir. Bu gün Milli Oftalmologiya Mərkəzi, Azərbaycan Elmi-Tədqiqat Göz xəstəlikləri İnstitutu adını daşıdıqları akademik Zərifə Əliyevanın “Seçilmiş əsərləri”nə

daxil edilmiş əvəzsiz, yüksək elmi dəyərə malik əsərlərindən doğan elm işığı sayəsində yüksəs ixtisaslı elmi tövsiyə, təcrübi yardım və metodik məsləhət mərkəzinə, elmi müəssisəyə çevrilmişdir.

***Konfrans*** – Kitabxanalarda Akademik Zərifə xanım Əliyevanın oftalmologiya sahəsində göz xəstəlikləri ilə bağlı dərc edilmiş nəzəriyyələrlə bağlı **"Onun ömür işığında qaranlıq dünyalara şəfa verildi"** mövzusunda *elmi-praktiki konfrans* da keçirtmək olar. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən edilməlidir. Proqramda konfransda çıxış edəcək qonaqların, göz həkimlərinin, şagirdlərin, tələbələrin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur.

**Kitabxanaçı:** Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli bir nümunəvi yoldur. Onun olduqca zəngin və şaxəli həyat yolu bir çox istiqamətlərdə özünü büruzə verir. Bu həyat yoluna nəzər saldıqda bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqəti cəlb edir. Bir ana ömrü, tədqiqatçı ömrü, həkim ömrü, alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə, zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan çalarlı bir ömrünü yazılı salnamələrdə əks etdirdi. Onun ömür işığında qaranlıq dünyalara şəfa verildi.

**I iştirakçı:** Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Görkəmli alim, ictimai xadim, Azərbaycan EA-nın akademiki, tibb elmləri doktoru, professor, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri İnstitutu oftalmologiya kafedrasının müdiri,

Azərbaycan EA Fiziologiya İnstitutunun laboratoriya rəhbəri, Azərbaycanın Əməkdar elm xadimi, Tibb Elmləri Akademiyası mükafatı laureatı, Sülhü Müdafiə Komitəsinin üzvü, "Bilik" Cəmiyyəti Rəyasət Heyətinin üzvü Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır. Kimya sənayəsində göz zədələnmələrinin öyrənilməsinə və praktikasına dair orijinal əsərlər silsiləsinə görə Tibb Elmləri Akademiyası onu akademik M.İ.Averbax adına mükafatla təltif etmişdir. Zərifə Əliyevanın Azərbaycan EA-nın akademiki seçilməsi onun böyük xidmətlərinin, çoxillik səmərəli elmi tədqiqat işinin etirafıdır.

Alimin elmi fəaliyyətinin istiqamətlərindən biri gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqinə həsr edilmişdir. Bu istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri onun "Yaşla əlaqədar gözün və görmə siniri yollarının dəyişməsi", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" adlı monoqrafiyalarında geniş və ətraflı şəkildə öz əksini tapmışdır.

Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. Bu gün Azərbaycan qadınının xeyirxahlıq, Analıq simvoluna çevrilmiş akademik Zərifə xanım Əliyevanın həyat yolu alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandırır.

**II iştirakçı:** Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyevanın elmi fəaliyyətini, peşəkarlığını yüksək qiymətləndirmişdilər. Belə ki, Moskva Oftalmoloji Məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım deyərdim: O, həm xeyirxah idi, həm ağıllı idi, həm də qüdrətli idi!"

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, onun fədakar ana olmasından irəli gəlirdi. O, nə edirdisə, böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında dərindən və qabarıq duyulurdu:

Əziz anam, şirin sözlü anam,
Qəlbin kövrək, eşqin solmaz bahar.
Gülər üzlü, qara gözlü anam,
Hara getsəm gözün mənə baxar.
Ana qəlbin layla olar gəzər,
Doğma səsin ömrü-günü bəzər.

Müasirləri onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu vurğulayırlar. Zərifə xanım işinin gərginliyinə baxmayaraq həmişə bir qadın olaraq mülayimliyi, həssaslığı və insanlara mehriban yanaşması ilə seçilib. Ümumiyyətlə, Zərifə

xanımın həyatı Azərbaycan qadınları üçün bir məktəbdir. Elə bir məktəbdir ki, uzun illər boyu öyrəniləcəkdir.

Zərifə xanım Əliyevanın adını çəkməklə ömrünün mənasını insanlara xidmətdə görən müdrik bir insan haqqında zəngin təsəvvür yaratmaq mümkündür. Bənzərsiz insan, səmimi, mehriban rəfiqə, sədaqətli həyat yoldaşı, cəfakeş ana. Cəmiyyətdə böyük nüfuz və hörmət qazanmaq, minlərlə insanın sevimlisinə, hamisinə çevrilmək üçün tələb olunan bu keyfiyyətlər Zərifə xanımın şəxsiyyətini tamamlayırdı.

***Xatirə gecəsi*** – Kitabxanalarda akademik Zərifə xanım Əliyevanın 95 illik yubileyi ilə əlaqədar ***"Gözlərə nur verən insan"*** adlı *xatirə gecəsi* keçirilir. Xatirə gecəsi ilə əlaqədar əvvəlcədən hazırlıq işləri görülməli, fotostendlər, sərgilər, videoçarxlar hazırlanır. Tədbir başlamamışdan qabaq qonaqlar öz yerini alır və görkəmli oftalmoloq haqqında video slayd göstərilir. Sonra çıxışlara yer verilir, dəvət olunan qonaqlar Zərifə xanım haqqında öz xatirələrini danışır, öz fikirlərini oxucularla bölüşürlər.

**I aparıcı:** Zərifə xanım Əliyeva atasının – görkəmli dövlət və elm xadimi, pedaqoq-alim, professor Əziz Əliyevin yolunu davam etdirmişdi. Onun səhiyyə sahəsini, xüsusən də, oftalmologiya sahəsini seçməsində atasının və ailəsinin böyük təsiri olmuşdu. Səhiyyə sahəsini seçmək Əziz Əliyevin ailəsində artıq ənənəyə çevrilmişdi. Onun 2 oğlu da tibb sahəsini seçmiş, tibb elminə töhfələr vermişlər.

Elmi və ictimai fəaliyyətinin çox geniş olmasına baxmayaraq, Zərifə xanımın həyatda ən ağır məsuliyyəti ümummilli lider Heydər Əliyev ilə ailə qurması idi. Çünki bu incə təbiətli, kövrək qadın öz zərif çiyinlərində dünya şöhrətli siyasətçinin yaxın silahdaşı və övladlarının anası olmaq missiyasını şərəflə daşımış, ulu öndərin inam və etibarını hər addımında doğrultmuşdu. Birgə yaşadıqları o xoşbəxt illərdə

Heydər Əliyev həmişə gərgin iş rejimi ilə gecə-gündüz bilmədən işləmiş, xalqının gələcəyi yolunda ömrünü şam kimi əritmişdi. Ən ağır, ən təhlükəli vaxtlarda belə Zərifə xanım həyat yoldaşını tək qoymamış, onun dayağına çevrilmişdi. Dahi şəxsiyyət Heydər Əliyev öz xanımı haqqında çox haqlı olaraq demişdir: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailəmin çox böyük rolu olmuşdur. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm".

Cəmiyyətin həyatında fəal rol oynayan Zərifə xanım ailəsinə son dərəcə bağlı olan bir qadın, gözəl ana idi. Öz analıq missiyasını sevdiyi peşəsi ilə birləşdirən bu xanımı bir qadın, bir alim və həkim kimi cəmiyyətin inkişafına xidmət edən ailəsindən ayrı düşünmək olmazdı. Böyük zəka sahibi olan Zərifə xanım analıq vəzifəsinin öhdəsindən də çox gözəl gəlmişdir. O, hər zaman övladlarına qarşı səmimi olmuş, onlara dost münasibəti bəsləmişdir. Zərifə xanım ömür-gün yoldaşı Heydər Əliyev ilə birlikdə qəlblərində daim Azərbaycan sevgisi yaşayan, vətənimizin qüruru sayılan övladlar yetişdirmişlər. Zərifə xanım özünə xas olan xeyirxahlıq, alicənablıq, insansevərlik, səmimilik kimi xüsusiyyətlərini övladlarına da ötürmüşdü. Onun təmkinliyi, səbirliliyi, düzgünlüyü, düşüncəsi, ağlı, savadı və digər müsbət xasiyyətləri övladlarının da onun yolunu getməsinə köməkçi olmuşdu.

**II aparıcı:** Zərifə Əliyeva Azərbaycanın səhiyyə sahəsində silinməz iz buraxmışdır. O, şöhrətli alim, görkəmli oftalmoloq kimi öz töhfələrini verməklə gənc oftalmoloqların inkişafı yolunda çalışmışdır. Novator alimin zəngin elmi irsi, öz sahəsi

üzrə apardığı tədqiqatlar, müəllif olduğu əsərlər ölkəmizin tibb sahəsinin genişlənərək inkişaf etməsinin dayağına çevrilmişdir. Onun bir çox əsərləri və dərslikləri oftalmoloqların stolüstü kitabı kimi daim vərəqlənir. Müəllifi olduğu "Oftalmoloq kadrların təlim-tərbiyəsi", "Həkimlərin təkmilləşdirilməsinin elmi əsasları" silsilə əsərləri bu gün də oftalmoloqların zəngin kitabxanalarının nümunələrindəndir.

Akademik Zərifə xanımın Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıtması və öz dəsti-xətti ilə hər zaman seçilməsi də onun fərqliliyindən, qabiliyyətindən xəbər verir. Qeyd edək ki, o, həmçinin Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü olmuş ilk oftalmoloq olmuşdur. Möhtərəm akademikin oftalmologiyanın aktual mövzularına dair apardığı tədqiqatlar göz xəstəliklərinin müalicəsi üçün metodların axtarılıb tapılmasına təkan vermişdir. Bir-birindən fərqli və vacib mövzuları əhatə edən "Göz yaşının axmasının fiziologiyası", "Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti" və digər elmi məqalələri, monoqrafiyaları çap edilmişdir. İnsanın işıqlı dünyadan məhrum olmaması üçün göz nuruna ehtiyacı var. Zərifə xanım da məhz göz nurunun qorunması üçün çalışırdı. Öz gözündəki nur da insanların diqqətindən yayınmırdı.

Bacarıqlı həkimin əsas məqsədlərindən biri də insanların çox əziyyət çəkdiyi traxoma xəstəliyinin qarşısını almaq olmuşdur. Sevilən həkim traxoma xəstəliyinə qarşı müalicəvi və profilaktik tədbirlərin təşkilində fəal iştirak etmişdir. O, bu xəstəliyin geniş yayıldığı rayonlara getmiş, oftalmoloqlara mühazirələr oxumuş, əhali arasında maarifləndirmə işləri aparmışdır. Tanınmış alim sonradan 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomesinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək tibb elmləri

namizədi, alimlik dərəcəsinə layiq görülmüşdür. Traxoma ilə bağlı tədqiqatlarından əlavə o, oftalmologiyanın başqa problemlərinin elmi araşdırılması ilə də məşğul olmağa başlamışdır. O, vərəm, şəkər, qlaukoma xəstəlikləri səbəbindən baş verən narahatlıqların öyrənilməsi sahəsinə yeniliklər gətirmişdir. Kliniki və nəzəri oftalmologiyanın bir sıra vacib məsələlərinə həsr olunan yeni və uğurlu tədqiqatların əsasını qoyan Zərifə xanım Əliyeva Azərbaycanda kimya sənayesinin də genişlənməsi və inkişafı ilə bağlı görmə üzvünə kimyəvi maddələrin təsiretmə mexanizminin praktiki olaraq aşkar edilməsi kimi ciddi işlərin də banisidir. İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərifə Əliyeva, həmçinin nadir sahə olan iridodiqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya – "İridodiaqnostikanın əsasları" və "İridodiaqnostika" kitablarını nəşr etdirmişdir. Onun əsərlərinin hər birinin arxasında dərin düşüncələr, elmi tapıntılar, inanılmaz faktlar dayanır.

Qeyd etmək yerinə düşər ki, Zərifə xanım Azərbaycanda oftalmologiya sahəsində ilk akademik qadın olmuşdur.

**III aparıcı:** Zərifə xanım bir həkim, alim və vətəndaş kimi bütün ömrü boyu xalqı üçün çalışmışdı və o, səhiyyənin inkişafında oynadığı rol, insanların sağlamlığı yolunda gördüyü işlərlə əbədi olaraq xatirələrdə, xalqın yaddaşında daim yaşayacaqdır. Onun adını daşıyan Milli Oftalmologiya Mərkəzi, Naxçıvan şəhər

poliknikası, Elmi-Tədqiqat Göz Xəstəlikləri institutu, küçələr, xəstəxanalar, körpələr evi, təlim-təhsil ocaqları və s. Zərifə Xanım Əliyevaya bəslənilən rəğbətin, göstərilən ehtiramın nəticəsidir.

Xalqımız tərəfindən hər il aprelin 28-də Zərifə xanımın doğum günü, 15-də isə anım günü dərin ehtiramla qeyd olunması xalqının ona olan böyük məhəbbətinin ifadəsidir. İnanırıq ki, zaman keçdikcə, nəsillər dəyişdikcə, bu məhəbbət xalqın ürəyində bir sevgi abidəsi kimi ucalacaq.

Görkəmli alimə və həkimə, tibb elmi və səhiyyə xadiminə xas olan ictimai və vətənpərvər borcun, yüksək məsuliyyətin dərindən dərk edilməsi, hər bir işə yaradıcı münasibətlə yanaşması, sadəlik, təvazökarlıq akademik Zərifə Əziz qızı Əliyevaya məxsus olan keyfiyyətlərdir. Bütün bunlar ona ölkəmizdə və hörmət və məhəbbət qazandırmışdır. Zərifə xanım sözün yüksək anlamında Böyük İnsan olmuşdur, onun həyatı gələcək nəsillər üçün əbədi nümunə olacaq, xatirəsi həmişə əziz tutulacaqdır.

## Ədəbiyyat siyahısı

**Adilqızı G.** Görə bildiyim üçün Zərifə xanıma borcluyam // Ömrün parlaq səhifələri. V kitab. - Bakı : Nərgiz, 2008. - 256 s. : foto. - –S.201-206. - (Vətən çağırır).

**Xəyal S**. Zərifə Əliyeva // Halal şöhrət : "Azərbaycanın dünya şöhrətli qadınları" adlı məclisdən - Bakı : MBM, 2011. – S.17-24.

**Mirələmov H.** Zərifə Əliyeva. - Bakı : Azərbaycan, 2013. - 208 s. - (Görkəmli Adamların Həyatı : bioqrafik silsilə).

**Zərifə Əziz qızı** Əliyeva = Zarifa Aziz gizi Aliyeva = Зарифа Азиз гызы Алиева : Biobiblioqrafiya. - Bakı : Şərq-Qərb, 2013. - 272 s. - Azərbaycan, ingilis və rus dilində.

**Zərifə xanım Əliyeva**. - Bakı : XXI-Yeni Nəşrlər Evi, 1998. - 288 s.

### *Dövri mətbuatda*

**Ağayev B.** İşıqlı xatirələrdə yaşayır : görkəmli həkim-oftalmoloq Zərifə Əliyeva haqqında // Azərbaycan. - 2014. - 25 aprel. - № 84. - S. 3.

**Allahverdiyev M.** Dünya şöhrətli oftalmoloq - alim : [Zərifə xanım Əliyeva haqqında] // Xalq qəzeti. - 2017. - 15 aprel. - № 78. - S. 3.

**Allahverdiyev M.** Xeyirxahlıq və humanizm mücəssəməsi : Akademik Zərifə Əziz qızı Əliyeva - 92 // Xalq qəzeti. - 2015. - № 89. – S.4.

**Allahverdiyev M.** Nəsillərə nümunə olan ömür yolu : Akademik Zərifə xanım Əliyeva - 93 // Xalq qəzeti. - 2016. - 28 aprel. - № 90. - S. 4.

**Baxşəliyeva G.** Zərifə xanım Əliyevanın timsalında ideal qadın və əsl Azərbaycan xanımı obrazı canlanır // İki sahil. - 2014. - 26 aprel. - № 72. - S. 16.

**Eyyubova G.** Zərifə xanım Əliyeva bütün xəstələr üçün həyat qaynağı idi // İki sahil. - 2017. - 28 aprel. - № 74. - S. 14.

**Ələddinqızı N.** Azərbaycan oftalmologiyasını dünyada tanıtdıran BÖYÜK ALİM : Bu gün akademik, oftalmoloq-alim, böyük ziyalı Zərifə xanım Əliyevanın doğum günüdür // Səs. - 2017. - 28 aprel. - № 74. - S. 4.

**Ələddinqızı N.** Nəciblik və mənəvi paklıq timsalı : Bu gün akademik Zərifə xanım Əliyevanın doğum günüdür // Səs. - 2015. - 28 aprel. - № 76. - S. 6.

**Ələddinqızı N.** Oftalmologiyanın mirvarisi, nəciblik və mənəvi paklıq timsalı : [Zərifə xanım Əliyeva haqqında] // Səs. - 2017. - 19 aprel. - № 67. - S. 5.

**Əliyeva İ.** Nurlu insan : [ əməkdar elm xadimi, tibb elmləri doktoru, oftalmoloq Zərifə Əliyeva haqqında] // Azərbaycan : qəzet. - 2016. - 15 aprel. - № 79. - S. 7.

**Əliyeva N.** Zərifə xanım Əliyevanın zəngin həyat yolu bugünkü və gələcək nəsillər üçün örnək və yaşam etalonudur : YAP Qadınlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü, Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyevanın yap.org.az-a müsahibəsi // Səs. - 2017. - 28 aprel. - № 74. - S. 7.

**Əmiraslanov Ə.** Dünya şöhrətli alim - oftalmoloq : [əməkdar elm xadimi, tibb elmləri doktoru, oftalmoloq Zərifə Əliyeva haqqında] // Azərbaycan. - 2016. - 28 aprel. - № 90. - S. 15.

**Əmiraslanov Ə.** Dünya şöhrətli oftalmoloq-alim, qayğıkeş pedaqoq, şəfqətli həkim, nümunəvi ana : Zərifə Əliyeva haqqında // Xalq qəzeti. - 2014. - 27 aprel. - № 86. - S. 3.

**Əmiraslanov Ə.** Nurlu ömrün işığı : [Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan. - 2017. - 15 aprel. - № 78. - S. 7.

**Əsədova Q.** O, gözlərə nur, ömürlərə sevinc paylayırdı : görkəmli həkim-oftalmoloq Zərifə Əliyeva haqqında // Respublika. - 2014. - 27 aprel. - № 86. - S. 5.

**Fədakar həkim, əsl** vətəndaş, səmimi və qayğıkeş insan : Zərifə Əliyeva haqqında // İki sahil. - 2014. - 29 aprel. - № 73. - S. 12-13.

**Həmidova Ü.** Ömürlərə sevinc, gözlərə nur paylayan insan // Kaspi. - 2017. - 28 aprel. - № 74. - S. 5.

**Hüseynova H.** Fədakar qadın, zəhmətkeş ana, dəyərli alim : Zərifə xanım Əliyeva Azərbaycanda oftalmologiya sahəsində ilk akademik qadın olmuşdur // Respublika. - 2017. - 2 may. - № 92. - S. 5.

**Hüseynova R.** Qayğıkeş Ana, vəfalı ömür-gün yoldaşı, böyük alim... : görkəmli həkim-oftalmoloq Zərifə Əliyeva haqqında // Səs. - 2014. - 25 aprel. - № 74. - S. 5.

**Hüseynova H.** Nəcib qadın, qayğıkeş ana və vətənpərvər həkim : Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunur // Kaspi. - 2014. - 29 aprel. - № 71. - S. 3.

**Hüseynova H.** Novator alim - şəfqətli qadın : [əməkdar elm xadimi, tibb elmləri doktoru, oftalmoloq Zərifə Əliyeva haqqında] // Respublika. - 2016. - 29 aprel. - № 91. - S. 5.

**Hüseynova H.** Nur bəxş edən nurani qadın : əməkdar elm xadimi, tibb elmləri doktoru, oftalmoloq Zərifə Əliyeva haqqında // Respublika. - 2015. - 28 aprel. - № 89. - S. 5.

**İkramqızı F.** Nəciblik və mənəvi paklıq simvolu : görkəmli həkim-oftalmoloq Zərifə Əliyeva haqqında // İki sahil. - 2014. - 25 aprel. - № 71. - S. 7.

**İsmayılqızı X.** Ağrıyan gözlərə şəfadır əlin... : əməkdar elm xadimi, tibb elmləri doktoru, oftalmoloq Zərifə Əliyeva haqqında // İki sahil. - 2015. - 28 aprel. - № 74. - S. 8.

**İsmayılqızı X.** Xeyirxahlığı varlığına hakim kəsilmiş insan // İki sahil. - 2017. - 28 aprel. - № 74. - S. 3.

**İsmayılqızı X.** Şəfalı əlləri ilə gözlərə nur paylayan işıqlı insan : Zərifə xanım Əliyeva - 94 // İki sahil. - 2017. - 26 aprel. - № 72. - S. 5.

**İsmayılqızı X.** Zərifə xanım Əliyeva: Şəfalı əlləri ilə insanlara nur bəxş edən şəxsiyyət // İki sahil. - 2014. - 17 aprel. - № 65. - S. 7.

**Qasımov E.** Azərbaycan səhiyyəsinin unudulmaz siması : [görkəmli alim, oftalmoloq Zərifə xanım Əliyeva haqqında] // Respublika. - 2017. - 29 aprel. - № 90. - S. 5.

**Qasımov N.** Mənəvi ucalığın zirvəsində : [görkəmli alim, oftalmoloq Zərifə xanım Əliyeva haqqında] // Xalq qəzeti. - 2017. - 28 aprel. - № 89. - S. 3.

**Mirələmov H.** Əbədiyyətə qovuşan ömür : görkəmli həkim - oftalmoloq Zərifə Əliyeva haqqında // Azərbaycan. - 2014. - 27 aprel. - № 86. - S. 5.

**Mirələmov H.** Nur heykəli : görkəmli oftalmologiya elminin parlaq simalarından olan Zərifə Əliyeva haqqında // Azərbaycan. - 2015. - 15 aprel. - № 78. - S. 6.

**Mirməmməd G.** Rəsmini çəkmək istədiyim qadın : görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevaya ithaf // Mədəniyyət.az. - 2015. - № 4. - S. 74-77.

**Nasir Ş.** Qəlblərə nur saçan insan // Respublika. - 2017. - 3 may. - № 93. - S. 8.

**Salahova Z.** Zəkasının işığı hələ də görünür : görkəmli həkim-oftalmoloq Zərifə Əliyeva haqqında // Azərbaycan. - 2014. - 15 aprel. - № 75. - S. 7.

**Süleymanova E.** Gözlərə nur bəxş edən alim : [Zərifə xanım Əliyeva] // Respublika. - 2017. - 28 aprel. - № 89. - S. 5.

**Urud M.** İnsanlıq zirvəsi : əməkdar elm xadimi, tibb elmləri doktoru, oftalmoloq Zərifə Əliyeva haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 18 aprel. - № 22/23. - S. 2.

**Zərifə xanım unikal** bir qadın idi : YAP Qadınlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü, professor Nurlana Əliyevanın www.yap.org.az saytına müsahibəsi // İki sahil. - 2015. - 28 aprel. - № 74. - S. 12;15 ; Azərbaycan. - 28 aprel. - № 89. - S. 5.

**Zümrüd.** Nəciblik və paklıq timsalı : 28 aprel akademik Zərifə xanım Əliyevanın doğum günüdür // Səs. - 2016. - 28 aprel. - **№ 75**. - S. 7.

***Zərifə xanım Əliyevaya həsr olunmuş əsərlər***

**Bəxtiyar X.** Zəriflik mücəssəməsi, görkəmli akademik, xanım Zərifə Əliyevanın əziz xatirəsinə : şeir // Təhsil problemləri. - 2015. - 16-23 aprel. - № 29/30. - S. 1.

**Dilbazi M.** Unudulmaz Zərifə xanımın xatirəsinə : şeir // Zərifə xanım Əliyeva. – Bakı : XXI - Yeni Nəşrlər Evi, 1998. – S.14. ; Seçilmiş əsərləri. – B. : Lider, 2004. – S.64.

**Həsənzadə N**. Əbədiyyət : şeir // Zərifə xanım Əliyeva. – Bakı : XXI - Yeni Nəşrlər Evi, 1998. – S.15.

**Xəzri N**. Zərif ürəkli məğrur qadın : şeir // Zərifə xanım Əliyeva. – Bakı : XXI - Yeni Nəşrlər Evi, 1998. – S.13.

**Qoca F**. Ana : mahnı / mus. Əliyeva S. // Zərifə xanım Əliyeva. – Bakı : XXI - Yeni Nəşrlər Evi, 1998. – S.243.

**Qoca F.** Sənsiz : mahnı / mus. Əliyeva S. // Zərifə xanım Əliyeva. – Bakı : XXI - Yeni Nəşrlər Evi, 1998. – S.5.

**Rüstəm S**. Duyuram ağırdır, dərindir yaran... : şeir // Zərifə xanım Əliyeva. – Bakı : XXI - Yeni Nəşrlər Evi, 1998. – S.10.

**Vahabzadə B**. Mərsiyə-rekviyem // Zərifə xanım Əliyeva. – Bakı : XXI -Yeni Nəşrlər Evi, 1998. – S.11-12.

**Yaqub Z.** Zərifə sevgisi, Heydər sevgisi // Əbədiyyət dastanı : poemalar. – Bakı : Pedaqogika, 2008. – S.41-44

# Ağrıyan gözlərə şəfadır əlin

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 29
Çapa imzalanmışdır:10.04.2018
Tirajı:100
Pulsuz